# Rüblük İcmal

"2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" təqaüdçüləri təhsil aldıqları ali məktəblərdə yüksək akademik göstəricilər nümayiş etdirməklə yanaşı, eyni zamanda Azərbaycan tarixi və mədəniyyətinin təbliğində, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və ölkəmiz üçün digər əhəmiyyətli mövzular ətrafında dünya ictimaiyyətinin məlumatlandırılmasında mühüm rol oynayırlar. 2014-cü ildən Təhsil Nazirliyi Dövlət Proqramı çərçivəsində təhsil alan və məzun olmuş təqaüdçülərin uğurlarının və müvəffəqiyyət hekayələrinin ictimaiyyətə çatdırılması üçün yeni "Rüblük İcmal" layihəsini təqdim edir. Rüblük İcmalın bütün buraxılışları ilə aşağıdakı keçiddən tanış ola bilərsiniz: https://dp.edu.az/az/content/47

İCMAL

YENİ TƏYİNATLAR

TƏDBİRLƏR VƏ NAİLİYYƏTLƏR

DÖVLƏT PROQRAMI MƏZUNLARININ ELMİ TÖHFƏLƏRİ

MÜKAFATLAR









# Yeni təyinat



## Elmira Fərzəliyeva

"2007-2015 Dövlət Proqramı" çərçivəsində 2012-2013-cü illərdə magistratura təhsil səviyyəsi üzrə İsveçrə Konfederasiyasının "Glion Institute of Higher Education" ali təhsil müəssisəsindən məzun olmuş Elmira Fərzəliyeva Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin Tarixi-mədəni irsin qorunması, ərazinin inkişafı və əmlakın idarə olunması şöbəsinin müdiri vəzifəsinə təyin edilmişdir.

Yeni fəaliyyətində E.Fərzəliyevaya uğurlar arzu edirik.

## Ayan Ağayeva

"2007-2015 Dövlət Proqramı" çərçivəsində 2013-2014-cü illərdə magistratura təhsil səviyyəsi üzrə İtaliya Respublikasının "Bocconi University" ali təhsil müəssisəsindən məzun olmuş Ayan Ağayeva Azərbaycan Respublikası Dövlət Neft Fondunun İctimaiyyətlə əlaqələr departamentinin direktoru və mətbuat katibi vəzifəsinə təyin edilmişdir. Yeni fəaliyyətində A.Ağayevaya uğurlar arzu edirik.



# Yeni təyinat



**Arslan Hacıyev**



**Anar Qədiməliyev**

"2007-2015 Dövlət Proqramı" çərçivəsində magistratura təhsil səviyyəsi üzrə ABŞ-ın "University of Florida" ali təhsil müəssisəsindən məzun olmuş Anar Qədiməliyev və eyni təhsil səviyyəsi üzrə Niderland Krallığının "Maastricht School of Management" ali təhsil müəssisəsindən məzun olmuş Arslan Hacıyev müvafiq olaraq Gəncə-Daşkəsən Regional Təhsil İdarəsi və Qazax-Tovuz Regional Təhsil İdarəsi müdiri vəzifələrinə təyin edilmişlər.

Hər iki Dövlət Proqramı məzununu bu münasibətlə təbrik edir və yeni fəaliyyətlərində uğurlar arzu edirik.

# Yeni təyinat



## Zamir Dibirov

"2007-2015 Dövlət Proqramı" çərçivəsində 2016-2018-ci illərdə magistratura təhsil səviyyəsi üzrə Avstraliyanın "University of Adelaide" ali təhsil müəssisəsindən məzun olmuş Zamir Dibirov Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyindəki İqtisadi Zonaların İnkişafı Agentliyinin idarə heyətinin sədr müavini vəzifəsinə təyin edilmişdir.

Yeni fəaliyyətində Z.Dibirova uğurlar arzu edirik.

## Orxan Nadirov

"2007-2015 Dövlət Proqramı" çərçivəsində 2011-2013-cü illərdə magistratura təhsil səviyyəsi üzrə Türkiyənin "Hacettepe Üniversitesi" ali təhsil müəssisəsindən məzun olmuş Orxan Nadirov Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində aparıcı məsləhətçi vəzifəsinə təyin edilmişdir.

Yeni fəaliyyətində O.Nadirova uğurlar arzu edirik.



# 2-ci Yüksəliş müsabiqəsinin qalibi olmuş DP məzunları



Mehriban Nəzərova-Rəsulova



Arzu Tairquliyeva



Nihad Mənsimzadə



Nərgiz İsmayılova



Emil Məmmədli

"2007-2015 Dövlət Proqramı" çərçivəsində xaricdə təhsil almış 5 nəfər Dövlət Proqramı məzunu "Yuksəliş" müsabiqəsində iştirak edərək sahib olduqları yüksək intellektual səviyyə və idarəçilik bacarıqlarına görə müsabiqənin qalibləri seçilmişlər. Qalib seçilmiş Dövlət Proqramı məzunlarını bu münasibətlə təbrik edir və onlara fəaliyyətlərində uğurlar arzu edirik.

yüksəliş

# Məzunların nailiyyətləri



## Təhməz Həziyev

“2007-2015 Dövlət Proqramı” çərçivəsində 2013-2017-ci illərdə Türkiyənin “Hacettepe University” ali təhsil müəssisəsində “Daxili xəstəliklər” ixtisası üzrə rezidentura təhsili almış Təhməz Həziyev “Hematologiya” ixtisası üzrə xaricdə yandal uzmanlıq təhsilini tamamlamış və həmçinin Avropa Hematologiya Assosassiyasının təşkil etdiyi “Hematologiya” imtahanını müvəffəqiyyətlə keçmiş ilk azərbaycanlı olub.

T. Həziyevi bu münasibətlə təbrik edir və gələcək işlərində ona uğurlar arzu edirik.

## Vasif Əliyev

“2007-2015 Dövlət Proqramı” çərçivəsində 2011-2016-cı illərdə Türkiyənin “İstanbul Üniversitesi” ali təhsil müəssisəsində “İnfeksion xəstəliklər və kliniki mikrobiologiya” ixtisası üzrə rezidentura təhsili almış Vasif Əliyev Azərbaycanda ilk dəfə olaraq "İnfeksion Xəstəliklər və Klinik Mikrobiologiya" ictimai birliyini həmtəsis edib.

V.Əliyevi bu münasibətlə təbrik edir və gələcək işlərində ona uğurlar arzu edirik.



# Məzunların nailiyyətləri



**Sərvan Ağamuradov**



**Nümunə Əliyeva**

“2007-2015 Dövlət Proqramı” çərçivəsində 2013-2017-ci illərdə Türkiyənin “Hacettepe University” ali təhsil müəssisəsində “Daxili xəstəliklər” ixtisası üzrə rezidentura təhsili almış Sarvan Ağamuradov və 2013-2017-ci illərdə Türkiyənin “Istanbul University” ali təhsil müəssisəsində “Daxili xəstəliklər” ixtisası üzrə rezidentura təhsili almış Nümunə Əliyeva xaricdə “Revmatologiya” ixtisası üzrə yandal uzmanlıq təhsilini tamamlayan ilk azərbaycanlılar olub.

S.Ağamuradov və N.Əliyevanı bu münasibətlə təbrik edir və gələcək işlərində onlara uğurlar arzu edirik.







# Bir qrup DP məzunu Azərbaycan Respublikası Prezidentinin mükafatı ilə təltif edilib



Ceyla Seyidova



Tahir İbişov



Orxan Həşimov

“2007-2015 Dövlət Proqramı” çərçivəsində Rusiyanın və Avstriyanın nüfuzlu ali təhsil müəssisələrində mədəniyyət və incəsənət sahəsində təhsil almış bir qrup məzun 10 may 2022-ci il tarixində “İncəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatlarının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı” ilə uğurlu səhnə fəaliyyətlərinə görə Azərbaycan Respublikasının Prezidentinin mükafatları ilə təltif edilib.

Qeyd edək ki, təltif edilən DP məzunu incəsənət xadimlərindən Ceyla Seyidova Rusiyanın “Московская Государственная Консерватория им. П.И.Чайковского” ali təhsil müəssisəsində bakalavriat təhsil səviyyəsində “Mədəniyyət və incəsənət (Skripka)” ixtisası üzrə, Orxan Həşimov Rusiyanın “Московская Государственная Консерватория им. П.И.Чайковского” ali təhsil müəssisəsində bakalavriat təhsil səviyyəsində “Bəstəkarlıq” ixtisası üzrə və Tahir İbişov Avstriyanın “Universität für Musik und darstellende Kunst Graz” ali təhsil müəssisəsində bakalavriat təhsil səviyyəsində “Bəstəkarlıq (Musiqi nəzəriyyəsi)” ixtisası üzrə təhsil alıb. Bu münasibətlə DP məzunlarını təbrik edir və gələcək fəaliyyətlərində uğurlar arzu edirik.





# Təhsil naziri Londonda Dövlət Proqramı təqaüdçüləri ilə görüşüb

Təhsil naziri Emin Əmrullayev Dünya Təhsil Forumunda iştirak etmək üçün Londonda işgüzar səfərdədir.
Səfər çərçivəsində təhsil naziri mayın 22-də Azərbaycan Respublikasının Böyük Britaniyadakı Səfirliyində Dövlət Proqramı təqaüdçüləri ilə görüşüb. Görüşdə Təhsil Nazirliyi tərəfindən həyata keçirilən fəaliyyətlər haqqında məlumat verilib və təhsilin müxtəlif istiqamətlərinə dair faydalı fikir mübadiləsi aparılıb.
Eyni zamanda, Emin Əmrullayev görüşdə iştirak edən vətəndaşlarımızın təhsil fəaliyyəti, doktorantların tədqiqat işləri, onların təhsil aldıqları universitetlərdə əldə etdikləri təcrübələr və yiyələndikləri biliklər haqqında ətraflı məlumat alıb.








# “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”

MAY - AVQUST 2022

## RÜBLÜK İCMAL

*Hörmətli Dövlət Proqramı təqaüdçüləri, Rüblük icmalın növbəti buraxılışlarında öz uğurlarınızı, nailiyyətlərinizi görmək istəyirsinizsə, müvafiq məlumatları bizimlə paylaşmağınızı tövsiyə edirik.*

**Ziyadxan Xankişizadə**
**(ziyadxan.xankisizada@edu.gov.az)**

**Şəms Səfərəliyeva**
**(shams.safaraliyeva@edu.gov.az)**